# Onlar Vətən uğrunda vuruşublar



**Səfərov Sərdar Mədət oğlu**

12 avqust 1960-cı ildə Kəlbəcər rayonunda anadan olub. 1977-ci ildə orta məktəbi bitirib və kolxozda işləyib. 1979-cu ildə hərbi xidmətə gedib. 1981-ci ildə ordudan tərxis olunub. 1982-ci ildə Bakı Avtomobil Zavodunda işə düzəlib. Daxili işlər orqanlarında işləmək arzusu onu Tula vilayətinə aparıb. Zaoks rayonunda 3 il daxili işlər şöbəsinin mühafizə bölməsində milis nəfəri kimi xidmət edib. SSRİ DİN-nin Kaunas Xüsusi Milis Məktəbinə göndərilib. 1987-ci ildə təhsilini başa vuraraq, əvvəlki iş yerinə qayıdıb. Sahə müvəkkili vəzifəsinə təyin edilib. 1991-ci ildə vətənə qayıdıb və Qusar Rayon Daxili İşlər Şöbəsində sahə müvəkkili kimi xidmətini davam etdirib.

1991-ci il sentyabrın 25-də erməni terrorçuları Əsgəran rayonunun ərazisində "QAZ-53" markalı sərnişin avtobusuna hücum edəndə köməyə gələn istintaq qrupunun tərkibində o da olub. Hadisə yerindən qayıdan istintaq qrupunun üzvləri Xankəndi yaxınlığındakı "Ağa körpüsü"ndə erməni yaraqlılarının hücumuna məruz qalıblar. Həmin döyüşdə yoldaşlarını xilas edərkən qəhrəmancasına həlak olub.

Ailəli idi. Bir qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib.

Kəlbəcər rayonunda dəfn edilib. Adına Kəlbəcər şəhərində küçə var.



**Səlimov Araz Bahadır oğlu**

1 iyun 1960-cı ildə Xocalı şəhərində anadan olub. 1975-ci ildə burada orta məktəbin səkkizinci sinfini bitirib. Sonra texniki-peşə məktəbində traktorçu peşəsinə yiyələnib. Bir müddət kolxozda çalışıb. 1978-ci ildə ordu sıralarında hərbi xidmətə gedib. 1980-ci ildə ordudan tərxis olunub və doğma yurdu Xocalıya qayıdıb. Burada südçülük-tərəvəzçilik sovxozunda traktorçu işləyib.

1990-cı ildə könüllü olaraq Xocalı özünümüdafiə batalyonuna yazılıb. İlk gündən öz cəsarəti ilə fərqlənib, bir pulemyotçu kimi erməni təxribatlarına layiqincə cavab verib. Xocalı faciəsi zamanı son gülləsi qalana qədər vuruşub, onlarla qız-gəlini, qoca və uşaqları erməni quldurlarının caynağından qurtarıb. Erməni yaraqlıları izinə düşüblər, qardaşı Fəxrəddinlə onu Əsgəranda vəhşicəsinə qətlə yetiriblər.

Evli idi. Bir oğlu, iki qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 25 fevral 1997-ci il tarixli 553 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Ağdam şəhərində Şəhidlər xiyabanında dəfn edilib.



**Səmədov Pərviz Əbdüləhəd oğlu**

5 may 1970-ci ildə Gəncə şəhərində anadan olub. 1985-ci ildə 1 nömrəli Gəncə şəhər orta məktəbinin səkkizinci sinfini bitirib, təhsilini 15 nömrəli texniki-peşə məktəbində davam etdirib, burada avtomobil çilingəri ixtisasına yiyələnib.

1988-ci ilin mayında ordu sıralarına çağırılıb. Çita şəhərində xidmət edib və 1990-cı ildə doğma yurdu Gəncəyə qayıdıb. Əvvəlcə M.D.Hüseynov adına Xalça Kombinatında, sonra isə Toxuculuq Kombinatında çalışıb.

1992-ci ilin 22 fevralında könüllü olaraq Ağdam bölgəsinə gəlib və burada kəşfiyyat bölüyünün komandiri kimi fəaliyyətə başlayıb. Şelli, Naxçıvanik, Aranzəmin, Pircamal kəndləri uğrunda gedən döyüşlərdə misilsiz şücaətlər göstərib.

1992-ci il mayın 15-də Ağdamın Gülablı kəndində qızğın döyüşlər gedəndə onun bölüyü döyüşə atılıb. Ermənilər tərəfindən vurulmuş "Təcili yardım" vertolyotunun ekipajı quldurların caynağından xilas edilib. Lakin düşmən gülləsi Pərvizdən yan keçməyib.

Ailəli idi.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Gəncə şəhərində dəfn edilib. Gəncə şəhərində adına küçə var.



**Slesaryov Mixail Aleksandroviç**

1955-ci il mayın 8-də Rusiyanın Smolensk şəhərində anadan olub. 1990-cı ildə Smolensk şəhər 4 nömrəli orta məktəbini bitirdikdən sonra təhsilini 19 nömrəli texniki-peşə məktəbində davam etdirib. 1971-ci ildə traktorçu-maşinist kimi Smolensk Kənd Təsərrüfatı Texnikası Birliyində işləməyə başlayıb. 1975-ci ildə Sovet Ordusu sıralarına çağırılıb. 1977-ci ildə xidmətini başa vurub, göndərişlə Tbilisi Gizirlər Məktəbinə daxil olub. Məktəbi bitirdikdən sonra Bakıya qayıdıb. 1981-ci ildən 1986-cı ilə qədər motoatıcı tağımın komandiri, 1986-cı ildən 1999-cu ilin yanvar ayına qədər isə mühafizə tağımının rəisi vəzifələrində işləyib.

7 yanvar 1999-cu ildə Qobustan həbsxanasında xidməti vəzifəsini yerinə yetirərkən həbsxanadan qaçmağa çalışan məhbusların qarşısını almaq üçün cəld əməliyyat qrupu yaradıb. Əməliyyat çox uğurlu keçib. Qiyamçılar yerində oturdulub.

1999-cu ildə ona kiçik leytenant rütbəsi verilib. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin N saylı hərbi hissəsində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 1999-cu il tarixli 73 saylı fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Ailəli idi. İki övladı var.

2014-cü ildə vəfat edib. Qobustanda dəfn olunub.



**Salahov Şakir Şamil oğlu**

15 iyun 1966-cı ildə Xocalı rayonunun Cəmilli kəndində anadan olub. 1981-ci ildə Cəmilli kənd səkkizillik məktəbini bitirib, təhsilini orada qiyabi orta məktəbdə davam etdirib. 1984-cü ildə ordu sıralarına çağırılıb. 1986-cı ildə hərbi xidmətini başa vuraraq Xankəndi şəhər Daxili İşlər İdarəsinin mühafizə şöbəsinə işə qəbul edilib.

1990-cı ildə Yuxarı Qarabağda yaşayan azərbaycanlıların təhlükəsizliyini təmin etmək üçün Daxili İşlər Nazirliyi Cəmilli kəndində polis bölməsi yaradanda ilk gündən həmin bölmədə fəaliyyətə başlayıb. 1991-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa filialına daxil olub.

1991-ci il fevralın 26-da ermənilər üç tərəfdən - Ballıca, Xanəzək və Xankəndi istiqamətlərindən Cəmilli kəndinə güclü hücuma keçəndə neçə-neçə erməni quldurunu məhv edib. Cəmilli kəndi işğal olunduqdan sonra 1991-ci il yanvarın 28-də yenidən Kosalar kəndinin müdafiəsinə yollanıb. Ağdam-Şuşa marşrutu ilə uçan vertolyot ermənilər tərəfindən vurulub. Sərnişinlər düşmənə təslim olmamaq üçün özlərini vertolyotdan ataraq həlak olublar. Onların arasında o da olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bərdə şəhərində Şəhidlər xiyabanında dəfn edilib.



**Sarıyev Zaur Rəşid oğlu**

28 iyun 1974-cü ildə Şəmkir rayonunun Qaralar kəndində anadan olub. 1989-cu ildə burada onuncu sinfi bitirib. Həmin il 15 nömrəli Gəncə şəhər texniki-peşə məktəbində elektrik qaynaqçısı peşəsinə yiyələnib. 1993-cü il iyulun 6-da Milli Ordu sıralarına çağırılıb. Əvvəlcə Qusar rayonunda yerləşən hərbi hissədə təlim keçib. Çox keçmədən onu döyüş bölgəsinə göndəriblər. Döyüş yolu Tərtərdən başlayıb və Füzuli, Ağdam, Kəlbəcər, Murovdağa qədər uzanıb.

1994-cü ilin sərt qışında bir dəstə döyüşçü yoldaşı ilə birlikdə Murovdağ istiqamətində kəşfiyyata getmək əmri alıb. Kəşfiyyat zamanı mühasirəyə düşüblər. İgid əsgərlər düşmənə ciddi müqavimət göstərib və 13 gündən sonra mühasirədən çıxmağa müvəffəq olublar.

1995-ci il martın 13-də ölkədə dövlət çevrilişinə edilən cəhdin qarşısının alınmasında iştirak edib. Bu döyüşdə Azərbaycanın müstəqilliyinin qorunub saxlanması yolunda həyatını qurban verib.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Şəmkir rayonunda Şəhidlər xiyabanında dəfn edilib.



**Sayadov Mehman Qəzənfər oğlu**

21 noyabr 1972-ci ildə Qərbi Azərbaycanın Vardenis rayonunun Günəşli kəndində anadan olub. Burada orta məktəbin yeddinci sinfini bitirəndən sonra qismətinə qaçqınlıq həyatını yaşamaq düşüb. 1988-ci ildə ailəliklə Samux rayonunun Sərkar kəndinə pənah gətirib. Ölkədə xalq hərəkatı başlayanda onun öncüllərindən biri olub. 18 yaşının tamamında Sovet Ordusu sıralarına çağırılıb. Sverdlovsk vilayətində 6 ay xidmət etdikdən sonra Vətənin çağırışına səs verərək Azərbaycana dönüb. 5 noyabr 1991-ci ildə "Azərbaycan Qarabağı" könüllü müdafiə batalyonunun tərkibinə üzv yazılıb və cəbhəyə yola düşüb. Şuşa rayonunun bir sıra kəndlərinin müdafiəsində əsl qəhrəmanlıq nümunəsi göstərib. Kosalarda, sonra isə Nəbilər kəndində döyüşlərdə yoldaşlarının köməyi ilə düşmənin 70-ə yaxın canlı qüvvəsini və bir neçə hərbi texnikasını məhv edib.

9 may 1992-ci ildə Şuşa rayonu Nəbilər kəndinin müdafiəsi zamanı rəşadəti ilə ölməzliyə qovuşub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Cəsədi döyüş meydanında qalıb.



**Şükürov Şahlar Əvəz oğlu**

17 may 1952-ci ildə Kəlbəcər rayonunun Zülfüqarlı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olub. 1972-ci ildə təhsilini bitirərək hərbi xidmətə yollanıb. Ordu sıralarından tərxis olunduqdan sonra Bakıdakı islah-əmək müəssisələrinin birində işləyib. Sonra fəaliyyətini Ucar Rayon Daxili İşlər Şöbəsində davam etdirib.

1986-cı ildə Rostov Ali Polis Akademiyasını bitirib. 1987-ci ildə Zərdab rayon DİŞ-də əməliyyat işləri üzrə rəis müavini vəzifəsinə təyin edilib. Polis mayoru rütbəsi alıb.

Tez-tez qaynar nöqtələrdə olub, erməni yaraqlılarına qarşı əməliyyatlarda fəal iştirak edib. 1990-cı il iyulun 11-də hərbi qulluqçuların müşayiəti ilə Tərtər-Kəlbəcər yolu ilə hərəkət edən maşın karvanı Ağdərə ərazisindən keçərkən düşmənin qəfil hücumu ilə rastlaşıb. Bu qeyri-bərabər döyüşdə son nəfəsinədək döyüşüb və qəhrəmancasına həlak olub.

Ailəli idi. İki övladı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Kəlbəcər rayonunun Zülfüqarlı kəndində dəfn edilib.

Zərdab rayonunda adına küçə var. Rayondakı məktəblərin birinə onun adı verilib.



**Şikarov Şikar Şükür oğlu**

3 dekabr 1953-cü ildə Bakı şəhərində anadan olub. 1971-ci ildə 46 nömrəli orta məktəbi bitirib. Elə həmin il Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinə qəbul olunub. 1975-ci ildə təhsilini başa vurduqdan sonra təyinatla Primorsk vilayətindəki hərbi hissələrin birində rota komandiri kimi fəaliyyətə başlayıb. 1989-cu ildə Moskvada Frunze adına Hərbi Akademiyanı bitirib, polkovnik-leytenant rütbəsi ilə Ukraynanın Luqansk şəhərində yerləşən hərbi hissələrdən birinə qərargah rəisi göndərilib.

1990-cı ildə 20 Yanvar hadisələrindən sonra Azərbaycana qayıdıb. 1992-ci ilin fevral ayında isə Müdafiə Nazirliyi Baş Qərargah rəisinin birinci müavini təyin edilib. 1992-ci il mart ayında Goranboy rayonuna gəlib, işğal olunmuş ərazilərin erməni yaraqlılarından azad olunması əməliyyatını hazırlayıb. Rayonun bir sıra kəndləri düşmən tapdağından azad olunub. Ağdərədə keçirilən uğurlu əməliyyat nəticəsində düşmənin xeyli hərbi texnikası, canlı qüvvəsi məhv edilib, Tərtər rayonunun top və raket atəşinə tutulmasına son qoyulub.

1992-ci il iyunun 13-də Ağdərədə vəziyyət yenidən pisləşəndə əməliyyat planı hazırlayıb. Batalyonu ayağa qaldıraraq hücum əmri verib. Bir qədər sonra ermənilər tutduqları mövqedən geri çəkilməyə başlayıblar. Lakin bu, döyüşçünün son döyüşü olub.

Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib. Qobustan Rayon Sündü kənd orta məktəbi onun adını daşıyır.



**Şamoyev Firuddin İsa oğlu**

1962-ci il fevralın 7-də Qazax şəhərində anadan olub. Orta təhsilini Qazax şəhərində alıb. 1981-1983-cü illərdə hərbi xidmətdə olub. Ordudan tərxis olunduqdan sonra doğulduğu Qazax şəhərinə gəlib, Təmir-Tikinti İdarəsində çilingər kimi işə başlayıb.

Ermənilərin 1988-ci ildən başlanan əsassız ərazi iddiaları, onların törətdiyi qanlı cinayətlər Vətənin bütün qeyrətli oğulları kimi onu da hiddətləndirib və 1991-ci il iyulun 8-də könüllülərdən ibarət dəstəyə yazılıb. N saylı hərbi hissənin minaatan bölüyünün komandiri vəzifəsinə təyin olunub. Qazax rayonunun Bağanis Ayrım, Məzəm, Quşçu Ayrım və digər kəndlərinin müdafiəsinin iştirakçısı kimi dəfələrlə düşmənin atəş nöqtələrinin məhv edilməsində rəşadət göstərib.

1992-ci il aprelin 13-də Quşçu Ayrım kəndi ətrafında gedən ağır döyüşlərdə qəhrəmancasına həlak olub.

Ailəli idi. Üç övladı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Qazax şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Qazax şəhərindəki orta məktəblərdən biri onun adını daşıyır.

*Məlumatların hazırlanmasında "Heydər Əliyev və Azərbaycanın milli qəhrəmanları. Müqəddəs amal" kitabından istifadə olunub.*